AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

*Əlyazması hüququnda*

SEVİNC BAYRAM QIZI ƏLLƏZOVA

# NÖVRƏS İMANIN HƏYAT VƏ YARADICILIĞI

**5719.01 - Folklorşünaslıq**

**Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Aşıq yaradıcılığı" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Füzuli Xeyrulla oğlu Gözəlov**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponenetlər**: **Seyfəddin Həmzə oğlu Qəniyev**
filologiya üzrə elmlər doktoru

**Səhər Hidayət qızı Orucova**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı müəssisə**: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası

Müdafiə "_14___"_03_____2013-cü ildə saat _____ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdindəki FD.01.201 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Az1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "_____" _______________ 2013-cü il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Öz təşəkkül, təkamül və inkişaf dinamikası ilə bütövlükdə Azərbaycan aşıq sənətinin inkişafını şərtləndirən, orta əsrlərdən XX əsrin sonlarına qədər aşıq sənətinin əsas mərkəzlərindən biri kimi çıxış edən Göyçə aşıq mühiti bu statusunu uzun əsrlər boyu qoruyub saxlamış, mühitdə zəngin sənət ənənələri nəsildən nəslə ötürülərək öz davamlılığını bu günə qədər sürdürmüşdür. Elə bunun nəticəsidir ki, Göyçə aşıq mühitində yaradıcılıqları ideya-estetik, irfani-fəlsəfi və sənətkarlıq xüsusiyyətləri ilə bir-birindən fərqlənən zəngin aşıqlar və el şairləri silsiləsi mövcuddur. Bu silsilədə Göyçə el-aşıq poeziyasının görkəmli nümayəndəsi Növrəs İmanın xüsusi yeri vardır. Növrəs İmanın sənət və poeziya dünyası Azərbaycan folklorşünaslığı tarixində indiyə qədər monoqrafik planda tədqiqata cəlb olunmamışdır. Məhz buna görə də Növrəs İmanın poetik irsinin monoqrafik səviyyədə öyrənilməsi Azərbaycan folklorşünaslığının aktual problemlərindən biri olaraq qalmaqdadır. Nəzərə alsaq ki, digər aşıqlarla müqayisədə aşıq poeziyasında irfani poetik modellərin ən klassik mükəmməllikdə təzahürü Növrəs İman poeziyasında daha qabarıqdır, həmçinin bu xüsusiyyətləri baxımından aşığın poetik irsi sonrakı aşıq poeziyasının inkişafında mühüm rol oynamışdır, onda bu aktuallığın milli folklorşünaslıq və filologiya üçün daha böyük elmi əhəmiyyət kəsb etdiyi bir daha aydın olar. Növrəs İmanın yaradıcılığını öyrənmək hər şeydən əvvəl aşıq poeziyasına daxil ola bilmək üçün açar funksiyasını daşıyan irfani-poetik modelləri öyrənmək, aşıq poeziyası timsalında sənət və təriqət münasibətlərini müəyyənləşdirmək deməkdir. Məhz bu baxımdan Növrəs İman poeziyasının araşdırılması yalnız folklorşünaslıq üçün deyil, bütövlükdə filologiya, xüsusən klassik poeziya tədqiqatları üçün xüsusi aktuallıq kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini Növrəs İmanın bədii yaradıcılığı təşkil edir. Tədqiqatın predmetini isə Növrəs İmanın həyat və yaradıcılığını monoqrafik planda araşdırmaq, şeirlərini təhlilə cəlb etmək, onun poetik irsinin ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərini öyrənmək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın qarşısında duran əsas məqsəd XX əsrin əvvəlləri Azərbaycan aşıq sənətinin ən qüdrətli nümayəndələrindən biri olan Növrəs İmanın həyat və yaradıcılığını monoqrafik planda elmi-filoloji prinsiplər baxımından araşdırmaq, onun

poetik irsinin ictimai-fəlsəfi və ədəbi-estetik məzmununu, dini-təsəvvüfi ideya bazası ilə qarşılıqlı əlaqələrini və filoloji-nəzəri dəyərini müəyyənləşdirməklə XX əsr Azərbaycan aşıq sənətinin inkişafında rolunu üzə çıxarmaqdır. Dissertasiyada qarşıya qoyulan əsas məqsəd aşağıdakı vəzifələrin yerinə yetirilməsi ilə mümkün olmuşdur:

– Növrəs İmanın ilk mətbu əsərinin işıq üzü gördüyü dövrdən bu günə qədər əsərlərinin nəşr təcrübəsinin sistemli mənzərəsinin yaradılması ilə poetik irsinin faktural kəmiyyətini və janr təsnifatını müəyyənləşdirmək;

– Növrəs İmanın həyat və sənət bioqrafiyasının tədqiqi ilə bağlı Azərbaycan folklorşünaslarının, xüsusən aşıq sənətinin tədqiqatçısı olan alimlərimizin mülahizələrini sistemli olaraq araşdırmaq;

– Sufi rəmz və simvollarla zəngin sənət dünyası kimi həyatı da müəmmalarla dolu Növrəs İmanın daha çox folklor informasiyası əsasında müəyyənləşən bioqrafiyasının a araşdırılması;

– Növrəs İman lirikasının avtonom ideya-məzmun istiqamətlərinin müəyyənləşdirilməsi, bu istiqamətlər əsasında ideya özünəməxsusluğunun öyrənilməsi;

– Aşığın ictimai məzmunlu əsərlərini sənətkar və zaman münasibətləri aspektindən öyrənməklə onun dini-təsəvvüfi dünyagörüşü ilə sosial-siyasi mühit arasındakı ziddiyyətləri araşdırmaq;

– Aşığın əsərlərində özünü göstərən ictimai kədərin sosial-mədəni və dini-fəlsəfi aspektlərini araşdırmaq;

– Aşığın ictimai məzmunlu əsərlərində tarixi hadisələrin poetik təcəssümünün özünəməxsus cəhətlərini müəyyənləşdirmək;

– Aşığın ustadnamələrində mənəvi-əxlaqi dəyərlərin təbliği və ictimai eybəcərliklərin tənqidi istiqamətində araşdırma aparmaqla onun ictimai ideallarını müəyyənləşdirmək;

– Aşığın poeziyasında qürbət mövzusunu poetik ənənə və fərdi-bioqrafiya konteksində araşdırmaq;

– Aşığın poeziyasında dini məzmunlu əsərləri mənəvi-əxlaqi və dini - informativ səviyyələr (şəriət, din tarixi, dini rəvayətlər, dini şəxsiyyətlər və s.) üzrə araşdırmaq;

– Növrəs İmanın poeziyasında şiəlik tendensiyasını aşağıdakı istiqamətlər üzrə araşdırmaq:

– İslam dininin tarixi kontekstində Həzrəti Əli və imamlarla bağlı poetik-informatik görüşlər;

– Əli obrazının tərənnümü;

– Mənəvi-əxlaqi dəyərlərin təbliği kontekstində şiə görüşlərindən istifadə.

– El şairinin poetik dünyagörüşündə təsəvvüfi-irfani motivlərin öyrənilməsi, onların bədii təcəssüm xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Növrəs İmanın məhəbbət lirikasının ideya-məzmun xüsusiyyətlərinin öyrənilməsi;

– Sənətkarın yaradıcılığının bədii dil xüsusiyyətlərinin və məcazlar sisteminin öyrənilməsi;

– Aşığın təcnis sənətkarlığının araşdırılması;

– Aşığın bağlama və deyişmə sənətkarlığının öyrənilməsi və s.

**Tədqiqatın elmi yeniliyi.** Araşdırmanın elmi yeniliyi onun Növrəs İmanın həyat və yaradıcılığını monoqrafik planda tədqiqata cəlb edən ilk əsər olması ilə şərtlənir. Azərbaycan folklorşünaslığı və filoloji-nəzəri fikir tarixində ilk dəfə olaraq bu araşdırmada Növrəs İmanın əsərlərinin nəşri və tədqiqi təcrübəsi, müəmmalı bioqrafiyası, əsərlərinin ideya-məzmun və sənətkarlıq xüsusiyyətləri yaşadığı sosial mühit kontekstində və bağlı olduğu dini-fəlsəfi və ideya-estetik fikir axınları ilə qarşılıqlı əlaqədə obyektiv elmi prinsiplər baxımından monoqrafik planda tədqiqata cəlb edilir. Hesab etmək olar ki, sadalanan istiqamətlərdəki sistemli araşdırma tədqiqatın konturlarını və ümumi mənzərəsini yaratmaqla gələcək araşdırmalar üçün istiqamətverici funksiya yerinə yetirə bilər. İşin bir yeniliyi də aşıq poeziyasında bəzən güclü, bəzən sönük görünən dini-irfani məzmun kəsb edən şeirlərin təhlilinin metodik əsaslarının qoyulmasıdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Azərbaycan folklorşünaslığının və filoloji fikrinin mövcud təcrübəsinə uyğun olaraq, araşdırma tarixi-müqayisəli metod əsasında yazılmışdır. Bundan əlavə, tədqiqat üçün nəzəri-metodoloji baza funksiyasını Azərbaycan folklorşünaslığının XX əsrin əvvəllərindən bu günə qədərki folklorun toplanılması, nəşri və tədqiqi sahəsindəki mövcud təcrübəsi də yerinə yetirmişdir. Əsasən sovet hakimiyyəti illərində formalaşmış, mövcud araşdırmalarda “tarixi müqaisəli”, “nəzəri-analitik”, “təsviri”, bəzi hallarda isə “dialektik – məntiqi” adlandırılan bu metodların qarşılıqlı vəhdətindən yaranmış metodoloji istiqamətli yanaşmalar bəzi

məqamlarda bu araşdırma üçün də əsas tədqiqat prinsipləri olaraq alınmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Bu tədqiqatdan ali məktəblərin folklor, orta məktəblərin ədəbiyyat dərsliklərinin aşıq sənəti ilə bağlı bölmələrinin hazırlanması üçün istifadə etmək olar. Ali məktəblərin filologiya fakültələrində aşıq sənətinə dair xüsusi kursların tədrisi zamanı elmi vəsait kimi tədqiqatdan istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Təqdim olunan dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunda işlənib hazırlanmışdır. Tədqiqatın nəticələri öz əksini müəllifin konfrans və seminarlardakı məruzələrində və müxtəlif elmi məcmuələrdə, o cümlədən xaricdə çap olunmuş məqalələrində tapmışdır.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, öyrənilmə dərəcəsi, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, nəzəri əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında danışılır.

Dissertasiyanın birinci fəsli **"Növrəs İman ədəbi şəxsiyyət kimi"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. *"Sənətkarın yaradıcılığının nəşr məsələləri"* adlanan birinci yarımfəsildə Göyçə aşıq mühitinin özəlliyi, sənətkarlıq xüsusiyyətləri, ayrı-ayrı görkəmli sənətkarların sənət və həyat bioqrafiyasının öyrənilməsi sahəsində Azərbaycan folklorşünaslığında, xüsüsən son iyirmi ildə görülən işlərə ümumi nəzər salınmışdır. Göstərilmişdir ki, Göyçə aşıq mühitində həyat və sənət bioqrafiyasının dərindən araşdırılmasına ehtiyac olan sənətkarlardan biri, bəlkə də birincisi Növrəs İmandır.

Sufi rəmz və simvollarla zəngin sənət dünyası kimi bioqrafiyası da müəmmalarla dolu, yaşadığı ömür yolunun özünün sufi-dərvişanəliyi baxımından dastanlaşdığı, haqqında müxtəlif rəvayətlər danışılan Növrəs İman haqqında hələ onun öz sağlığında dövri mətbuatda məqalələr dərc olunmağa başlamışdır. 1927-ci ildə "Yeni həyat"

jurnalının 4-5-ci saylarında ərəb qrafikası ilə “El aşıqları” sərlövhəli yazıda Növrəs İmanın “Gəlib gedir” şeiri verilmişdir[1].

Daha sonralar sovet hakimiyyətinin ilk onilliklərində nəşr olunan əksər aşıq şeir kitablarına Növrəs İmanın şeirlərindən nümunələr də daxil edilmişdir[2] Həmin tarixi dövrdə aşığın əsərlərinin geniş oxucu kütləsinə ilk təqdimatı isə folklorşünas alim Hümmət Əlizadənin adı ilə bağlıdır. Ötən əsrin 30-40-cı illərində dəfələrlə müxtəlif folklorşünaslar - Ə.Axundov, E.Məmmədov, S.Axundov tərəfindən tərtib olunan şeir kitablarına Növrəs İmanın şeirləri daxil edilərək nəşr olunmuşdur.

Növrəs İmanın əsərlərinin toplanılması və nəşri sahəsində ən böyük xidməti folklorşünas alim İslam Ələsgər göstərmişdir.[3] Alim Aşıq Nəcəf və Aşıq Talıbın vasitəsilə Növrəs İmanın əsərlərinin müəyyən bir qismini əldə etməyə müəssər olmuşdur. Lakin bütün bunlar zəngin poetik irsə malik olan aşığın əsərlərinin cüzi bir hissəsi idi.

1996-cı ildə isə Yaqub Babayev və İslam Sadıq tərəfindən tərtib edilən “İki ustad” kitabında Növrəs İmanın əldə olunan şeirlərinin hamısı, həmçinin İslam Ələsgərin “Ələsgər ocağı” kitabındakı şeir nümunələri oraya daxil edilmişdir[4]. Növrəs İmanın poetik irsinin ən kamil şəkildə əks olunduğu, əvvəlki qüsurlardan əhəmiyyətli dərəcədə təmizləndiyi nəşr 2004-cü il nəşridir[5] .

Birinci fəslin ikinci yarımfəsli *“Növrəs İman irsinin öyrənilməsi tarixi”* adlanır. Növrəs İmanın həyat və yaradıcılığı sistemli, monoqrafik tədqiqatdan kənarda qalsa da, Azərbaycan folklorşünasları, xüsusən aşıq sənətinin tədqiqatçıları olan alimlərimiz öz növbəsində bu və ya digər səviyyədə Növrəs İmandan bəhs etmişdilər. Dissertasiyada bu mülahizələr xronoloji ardıcıllıqla nəzərdən keçirilmişdir.

Növrəs İmanın həyatı və yaradıcılığının özünəməxsus cəhətləri haqqında müəyyən fikirlər Göyçə aşıq məktəbinin tədqiqatçılarından

---

[1] Növrəs İman. Gəlib gedir // “Yeni həyat” jurnalı, 1927-ci il aprel, may, № 4-5, s.90-91

[2] Aşıqlar / toplayanı H.Əlizadə. 2 clddə, II c., Bakı: Azərnəşr, 1936, s. 214-233

[3] Ələsgər ocağı / tərtib edəni İslam Ələsgər. Bakı: Yazıçı, 1991

[4] Miskin Vəli, Növrəs İman. İki ustad. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 192 s.

[5] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, 199 s.

olan T.Göyçəli[6], prof.A.Nəbiyev[7], prof.Q.Namazovun[8] əsərlərində irəli sürülmüşdür. Növrəs İmanın həyat və yaradıcılığının tədqiqi, əsərlərinin toplanılması, və nəşri sahəsində ən böyük xidmət folklorşünas alim İslam Ələsgərin adı ilə bağlıdır. Sənətkara həsr olunmuş ayrıca məqalə kimi, ilk növbədə, 1996-cı ildə İslam Ələsgərin "Xalq qəzeti"ndə nəşr etdirdiyi "İtkin şairin tapılan dəftəri" məqaləsini qeyd etmək lazımdır.[9] İslam Ələsgərin Növrəs İmanın həyat və sənət bioqrafiyası ilə bağlı irəli sürdüyü mülahizələri daha geniş və sistemli şəkildə 2004-cü ildə nəşr etdirdiyi Növrəs İmanın "Seçilmiş əsərləri" kitabına yazdığı "Ön söz"də cəmləşmişdir [10]. Göyçə aşıq mühiti haqqında monoqrafik tədqiqat müəllifi Z.Məhərrəmov da özünün 1997-ci ildə nəşr olunmuş "XX əsr Göyçə aşıq mühiti" kitabında Növrəs İman haqqında məlumat vermişdir[11].

Birinci fəslin üçüncü yarımfəsli *"Növrəs İmanın həyatı ilə bağlı bəzi mübahisəli məsələlər"* adlanır. Bu yarımfəsildə Növrəs İmanın bioqrafiyası ilə bağlı aşağıdakı məsələlər üzərində xüsusi dayanılır:

1. Növrəs İmanda kəramət əlamətləri faktı;
2. Növrəs İmanda ruhi xəstəlik əlamətləri faktı;
3. Növrəs İmanın öz əsərlərini yandırması faktı;
4. Növrəs İmanın Göyçəni tərk edəcəyi ilə bağlı xəbərdarlığı faktı;
5. Növrəs İmanın Göyçəni tərk etməsi faktı.

Əgər diqqət etsək görərik ki, bu faktlar bir-biri ilə son dərəcə bağlıdır, biri digərini şərtləndirir.

Növrəs İmanın bioqrafiyası ilə bağlı olan müəyyən müəmmalı faktları, xüsusən də onun Göyçəni əbədilik tərk etməsi faktını təsəvvüfi davranış modellərindən, haqq aşıqlığı fenomenindən kənarda izah etmək mümkün deyildir. Növrəs İmandakı kəramət əlamətləri genetik əsası

---

[6] Göyçəli T. Göyçə aşıq məktəbi. Bakı: Göytürk: 1998, 238 s.
[7] Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 312 s.
[8] Namazov Q. Aşıqlar. Bakı: Səda, 2004, 444 s.
[9] Ələsgər İ. İtkin şairin tapılan dəftəri // "Xalq qəzeti", 10 avqust 1996-cı il, № 155
[10] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, 199 s.
[11] Məhərrəmov Z. XX əsr Göyçə aşıq mühiti / 1920-1950-ci illər. Bakı: "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1997, 123 s.

etibarilə təkkə-təriqətə bağlılığından irəli gələn bir əlamət olaraq onun haqq aşıqlığının göstəricisi idi. Məlum olduğu kimi, haqq aşıqlığı fenomeni özündə kompleks olaraq həm şairlik istedadını, həm saz çalmaq qabiliyyətini, həm də qeyri-adi qabiliyyətləri (gələcəkdən xəbər vermək, insanların qəlbini oxumaq və s.) əks etdirir. Məhəbbət dastanlarında buta almış aşiq qəhrəmanların sakral xüsusiyyətləri, kəramət əlamətləri haqq aşiqliyini ifadə edir. Növrəs İmandakı kəramət əlamətləri, heç şübhəsiz, onun aşıq sənətinin son sənətçilik mərhələsində yaşamasına baxmayaraq, genetik əsası etibarilə əslində təkkə-təriqət mərhələsinə dayanmasından irəli gəlirdi. Haqq aşıqlığı Növrəs İmanın timsalında bütöv nəzəri dünyagörüş və yaşam tərzi olaraq bir növ zühur etmişdir. Növrəs İman onu bioqrafiyasının əzab və ağrıları ilə yaşayırdı.

Dissertasiyanın II fəsli **"Növrəs İmanın lirikası"** adlanır. Bu fəsil üç yarımfəsildən və dörd bölmədən ibarətdir. Tədqiqatın bu fəsilində aşığın poetik irsində ideya-məzmun istiqamətləri olan 1. *məhəbbət lirikası, 2. ictimai-fəlsəfi və 3. dini-irfani lirika* ayrıca yarımfəsillərdə araşdırma predmeti olmuşdur.

Tədqiqatda dini və təsəvvüfi-fəlsəfi mövzu istiqamətinin Növrəs İmanın poetik dünyagörüşünün əsas ağırlıq mərkəzini təşkil etdiyi, məhz bu mövzu istiqamətinin aşığın şəxsiyyət fenomenallığını şərtləndirdiyi qənaəti irəli sürülmüşdür. Bu mövzu istiqamətindən düşən işığın fonunda aşıq bütün varlığı ilə dini-ruhani dəyərlərə dərindən bağlı, İslami yaşamın həm mənəvi, həm praktiki yönlərinə tamamilə sadiq, imanlı bir mömin, sevgili bir Əli aşiqi, kamil bir şəxsiyyət, vergili bir haqq aşağı olaraq gözlərimiz önündə canlanır.

Bir neçə yüz illik aşıq poeziyasının və Göyçə aşıq mühitinin zəngin ənənələri əsasında pərvəriş tapan Növrəs İman poeziyası mövzu baxımından son dərəcə rəngarəngdir. Aşıq poeziyasının ənənəvi mövzu istiqamətləri içərisində təbiət lirikası Növrəs İman poeziyasında yox dərəcəsindədir (Aşığın ayrıca olaraq təbiət mövzusuna həsr olunmuş "Dağlar" rədifli bircə qoşması məlumdur.

Növrəs İman poeziyasının əsas məzmun spesifikasını müəyyənləşdirən cəhətlərdən biri bu poeziyaya dərin bir kədərin hakim kəsilməsidir. Bu kədər həm həyat faciələrini, həm ictimai gerçəkliyin şairin ruhuna yad olmasını, həm qəriblik həsrətini, həm təsəvvüfi anlamda götürülən ilahi başlanğıcdan ayrılığı özündə birləşdirən, ayrılıqda bunlardan heç biri olmayan, bütövlükdə isə hamısı olan,

mənəvi tənhalıqdan doğan poetik-fəlsəfi bir kədərdir. Həm klassik, həm də müasir aşıqların heç birinin yaradıcılığında rast gəlmədiyimiz bir səviyyədə kədər Növrəs İman poeziyasında mənəvi dəyər səviyyəsinə qalxıb. Növrəs İmanın mənəvi tənhalığı onun yaşadığı zəmanə ilə daxili-mənəvi dünyasının ziddiyyətindən tutmuş, ətrafdakılar tərəfindən anlaşılmamasına qədər, təsəvvüfi kədərin dəlilik hesab edilməsinə qədər müxtəlif səbəblərlə şərtlənirdi. Bəlkə də, Növrəs İmanın əksər şeirlərini həm öz müasirlərinə, həm də gələcək nəsillərə ünvanlanmış göz yaşları ilə yazılmış namə hesab etmək olar. Şair bu naməni oxuyub onun dərdindən hali olanları, onu anlayanları, dərdinə həmdərd ola bilənləri ağlamağa səsləməklə mənəvi tənhalıq girdabında qaldığını bildirir. Bu kədər bəzən dərin sosial-ictimai məzmun kəsb edir, bəzən sufi qəmi kimi özünü göstərir, bəzən də gözəlin və ya vətənin ayrılığından doğan hicran əzabı kimi faktlaşır. Bizcə, Növrəs İman poeziyasının əsasında təsəvvüf dünyagörüşü dayandığından ümumi məzmun planında intellektual-fəlsəfi məzmun bu kədəri daha da qabarıqlaşdırır.

Növrəs İmanın yaradıcılığının ümumi ideya istiqamətlərindən, məzmun xüsusiyyətlərindən bəhs edərkən bir məsələni də xüsusi qeyd etmək lazımdır. Bu da onun poeziyasının əsasını təşkil edən dini-təsəvvüfi lirikanın özünün daxili semantik strukturu məsələsidir. Aşığın poeziyasında dini görüşlər bir tərəfdən, yuxarıda qeyd etdiyimiz kimi mənəvi-əxlaqi dəyərlərin təbliği kimi, digər tərəfdən isə informativ səviyyədə (şəriət, din tarixi, dini rəvayətlər, dini şəxsiyyətlər və s.) kimi özünü göstərir. Bu poeziyada dini-ruhani dəyərlərin təbliğində şiəçilik tendensiyası xüsusilə üstünlük təşkil edir. Şiə görüşləri şairin yaradıcılığında bir neçə istiqamətdə özünü göstərir:

1. İslam dininin tarixi kontekstində Həzrəti Əli və imamlarla bağlı poetik-informatik görüşlər;
2. Əli obrazının tərənnümü;
3. Mənəvi-əxlaqi dəyərlərin təbliği kontekstində şiə görüşlərindən istifadə.

Bu cəhət poeziyanın əsas və aparıcı ideya istiqamətlərindən olduğundan biz onu dini və təsəvvüfi dəyərlərin tərənnümü bölməsinin əsas istiqamətlərindən biri kimi qələmə almağı məqsədəuyğun bilmişik.

Bir məsələni də qeyd etmək istərdik ki, Növrəs İmanın həm ictimai məzmunlu, həm dini-təsəvvüfi məzmunlu əsərlərinə dərin bir intellektualizm xasdır. Buna görə də bu təmayüllərin "ictimai-fəlsəfi" və "dini-irfani lirika" adlandırılması daha məqsədəuyğundur.

Yuxarıda qeyd etdiyimiz kimi şairin yaradıcılığının çox az bir qismini isə məhəbbət lirikası təşkil edir. Məhəbbət lirikası şairin ümumi yaradıcılığında kəmiyyət baxımından son dərəcə az bir qismi təşkil etməsinə baxmayaraq, onun fərdi yaradıcılıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir.

Beləliklə, Növrəs İman poeziyasının ideya-məzmun xüsusiyyətləri ilə bağlı yuxarıda qeyd olunan qənaətləri ümumiləşdirərək bu poeziyanı bütün məzmun parametrləri üzrə sistemli əhatə edə bilmək üçün aşağıdakı ideya-məzmun təsnifatı modelini təklif edirik:

1. Məhəbbət lirikası:
-gözəlləmələr;
- aşığın(aşiqin) sevgi hisslərinin tərənnümü.

2. İctimai-fəlsəfi lirika:
-ictimai eybəcərliyin  və antiəxlaqi dəyərlərin tənqidi;
- mənəvi-əxlaqi dəyərlərin təbliği;
-qürbət motivləri;
-fərdi-bioqrafik detallar əsasında yaranan şeirlər;

3. Dini və təsəvvüfi-fəlsəfi lirika:
-dini informativ istiqamət (din tarixi, şəriət, dini əhvalatlar və dini şəxsiyyətlərlə bağlı şeirlər);
-təsəvvüfi-əxlaqi dəyərlərin tərənnümü;

İkinci fəslin *"Məhəbbət lirikası"* adlanan birinci yarımfəslində göstərilir ki, XX əsrin əvvəllərində yalnız Növrəs İmanın əldə olan şeirləri, qoşmaları, divaniləri, müxəmməsləri, deyişmələri, qəzəlləri üzərində məzmun istiqamətində elmi müşahidələr göstərir ki, bu poeziyada dünyəvi məhəbbətin tərənnümünə, insanın (qadının) zahiri gözəlliyinə həsr olunmuş şeirlər irfani məzmunlu şeirlərlə müqayisədə son dərəcə cüzi hissəni təşkil edir. Lakin bu şeirlər poetik zənginliyinə, obrazlılıq və ifadəliliyinə görə xüsusilə seçilir. Növrəs İmanın irfani məzmunlu şeirlərində son dərəcə ağır bir fəlsəfi məzmun, mürəkkəb sistemə malik təlimi dünyagörüş-təsəvvüf əsas olduğundan sanki, sənətkar bədii planda orijinallıq etməyə, bədii təsvir və ifadə vasitələri ilə bənzərsiz sənət möcüzəsi yaratmağa macal tapmır. Sənətkarın bütün poetik enerjisi ilahi eşq ideyasının ifadəsinə və dini şəxsiyyətlərə, xüsusən İmam Əli sevgisinin tərənnümünə yönəldiyi üçün bədii xırdalıqlara vaxt itirməyə həvəs belə olmur. Şairin gözəlləmələrində, insani hiss və emosiyaların tərənnümünə həsr olunan şeirlərində isə poetik mükəmməllik, poetik forma və poetik məzmun arasında mütənasiblik son dərəcə qabarıqdır.

Şairin qoşmalarındakı məhəbbət lirikası aşıq poeziyasında geniş yayılmış gözəlləmə formasındadır. Növrəs İmanın “Gözəl qız” gözəlləməsində natural təsviri boyalarla ümumiləşmiş mükəmməl qadın obrazı yaradılmışdır:

Ağ libasın, tər əndamın, gül üzün
Nə yaşayır bir-bir üstə, gözəl qız!
Xoş yerişin, şux gülüşün, dürr sözün.
Ayaq saxla, get ahəstə, gözəl qız[12]

Bu bənddə qızın zahiri gözəllikləri yalnız bir parametr üzrə, zahiri bədən quruluşunun və sifət cizgilərinin poetik tərənnümü ilə əyaniləşməmişdir. Gözəlin libası, yerişi, gülüşü, danışığı (dürr sözü) onun natural gözəlliyi ilə birləşərək müxtəlif estetik parametrlərin harmonik vəhdətini yaradır. Qoşmanın ikinci bəndində poetik məntiqə uyğun olaraq birinci bənddə təsvir olunan natural gözəlliyin aşıqda (aşiqdə) yaratdığı emosional ovqat təsvir olunmuşdur:

Əylən, bircə qəmli könlüm şad elə,
Şirin aşna olub verək əl-ələ.
Həsrətin çəkməkdən döndüm bülbülə,
Dəstinə gül götür dəstə, gözəl qız![13]

Bu bənddə estetizim təsvir olunan hissin, emosiyanın təbiiliyində, həyatiliyindədir. Şairin belə bir gözəlliyə qovuşmaq arzusu, həsrət əzablarına son qoymaq istəyi tamamilə təbii və inandırıcıdır.

Növrəs İmanın məhəbbət lirikasının əsas tərənnüm obyekti olan gözəllər də, bu gözəlliyin ilahi əsası da, bu gözəlliklərin şairdə doğurduğu estetik ovqat da, ilahi bir nemət olan məhəbbət də “bədii-mədəni şüurun”, konkret olaraq Növrəs İman şeirləri timsalında xalq poeziyasının dünyanın təzahürlərini estetik cəhətdən mənalandırmaq və dəyərləndirmək nümunəsidir.

□kinci f□slin “□ctimai-f□ls□fi lirika” adlanan ikinci yar□mf□slinin birinci bylm□sind□ “*□ctimai eyb□c□rliyin v□ anti□xlaqi d□y□rl□rin t□nqidi*” t□dqiq olnmu□dur. Nyvr□s □man poeziyas□n□n □sas ideya istiqam□tl□rind□n birini ictimai m□zmunlu □s□rl□r t□□kil edir. Nyvr□s □man poeziyas□nda ictimai mғhitl□ □air aras□nda, b□lk□ d□, heз bir a□□□□n poeziyas□nda rast g□lm□diyimiz bir

---

[12] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s. 59
[13] Yenə orada, s.59

k□skinlikd□ t□zad, ziddiyy□t, qar□□durma var. Mүvcud z□man□d□n □ikay□t, c□miyy□td□ sosial harmoniya prinsipl□rinin pozulmas□ hallar□na etiraz, m□n□vi d□y□rl□rin d□y□rsizl□□m□si v□ s. dem□k olar ki, bғtғn a□□q poeziyas□ ғзғn xarakterikdir. Lakin bu tipli ictimai m□zmunlu □s□rl□rd□ ictimai probleml□r□ ғmumil□□mi□ v□ universalla□m□□ bax□□ tipi hakimdir. Lakin Nүvr□s □manda ictimai gerз□kliy□ mғnasib□td□ boyalar daha qabar□q olmaqla, mғhitin □aird□ do□urdu□u t□la□ daha k□skindir:

Xəllaqi-möhtərəm, şahi-zülkərəm,
Bu uzun gecəni tez sabah eylə.
Dağıt üstümüzdən çəni, dumanı,
Şöləyi-münəvvər şəmsü mah eylə[14].

Bu beytlərdən göründüyü kimi, ictimai gerçəklik "gecə" kimi qatı bir metafora ilə işarələnərək onun işıqlanması arzu edilir. Bu, artıq ümumiləşmiş və fəlsəfi mənada götürülən "dünya" obrazı demək deyil. Bu, konkret tarixi şəraitin aşıq tərəfindən poetik diaqnozunun qoyulmasıdır. Azərbaycanda sovetləşmənin ilkin dövrlərində total psixoz mərhələsi olmuş, sosial ədalətin təntənəsinə əhalidə dərin bir inam yaranmışdır. Bu dövrdə cəmiyyətdə sosial harmoniyanın bərpa olunacağına Növrəs İmanda da müəyyən bir inam yaranır. Lakin çox keçmir, Növrəs İman dərin bir fəhmlə anlayır ki, yeni siyasi rejimin özü ilə bərabər gətirdiyi dəyərlər sistemi, ilk baxışdan nə qədər cəlbedici olsa da, həm etnik-milli, həm də dini-ruhani dəyərlərlə ziddiyyət təşkil edir:

Dilimin əzbəri, könlüm imdadı,
Yad olan dilimdən Quranım hayıf!
Fələyin dolanan gəc ruzigarı
Pozubdu işrətli dövranım, hayıf![15].

Artıq bu qoşmalarda ictimai mühitə qarşı etiraz birbaşa açıq kodlarla əyaniləşmişdir. "Dillərdən Quranı yad edən" və Quranla bağlı müqəddəs dəyərləri könüllərdən silib atmağa çalışan, siyasi-inzibati və ideoloji maşını bu məqsədə işləyən, öz ideologiyasına xidmət etmək üçün "gədadan bəy yaradan" dövran sovet dövranı idi. Aşıq bu dövranı "Fələyin gəc dolanan ruzigarı" kimi dəyərləndirir. Mövlanın adının zikri

---

[14] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.43
[15] Yenə orada, s.64

şairin ənənəvi ruhani yaşam tərzidir. Yeni ateist sovet rejimi bunun da əleyhinədir. Ona görə də şair bu mühiti “zülm dövranı” kimi xarakterizə edir.

Göründüyü kimi, Növrəs İmanın ictimai məzmunlu əsərlərində sənətkar və zaman timsalında konkret olaraq ruhani-mənəvi dəyərlər və ateist sovet cəmiyyəti üzbəüz döyüş məqamındadır.

□kinci f□slin ikinci yar□mf□slinin ꜰɜꜰɴᴄꜰ bγlm□si *“F□rdi-bioqrafik detallar □sas□nda yaranan □s□rl□r”* adlan□r. Nγvr□s □man□n ictimai m□zmunlu □s□rl□ri iɜ□risind□ el□ □eirl□r d□ vard□r ki, onlar konkret bir situasiyaya, hadis□ v□ □hvalata h□sr olunmu□dur. Biz bu tipli □eirl□ri □□rti olaraq bioqrafik m□zmunlu □s□rl□r adland□r□r□q. Bu □eirl□r □airin mꜰxt□lif hadis□l□r□ mꜰnasib□tini, h□mɜinin □□xsi bioqrafiyas□n□ γyr□nm□k bax□m□ndan □h□miyy□t da□□y□r.

Növrəs İmanın bioqrafik detallar əsasında yaranan şeirlərinin həm ümumi poetik səviyyəsindən, həm də orada əksini tapan əhvalatlardan belə məlum olur ki, bu şeirlər aşığın ilk qələm təcrübələrindəndir.

İkinci fəslin üçüncü yarımfəsli *“Dini-irfani lirika”* adlanır.

Növrəs İman poeziyasının əsas aparıcı ideya istiqamətini dini və təsəvvüfi mövzuda olan əsərləri təşkil edir. Dini və təsəvvüfi mövzuda olan əsərlər aşığın əldə olan şeirləri içərisində həcm baxımından çoxluq təşkil etməklə yanaşı, öz ideya-məzmun xüsusiyyətləri baxımından da son dərəcə rəngarəng olub, bütövlükdə onun poetik-fəlsəfi dünyagörüşünü müəyyənləşdirmək, sənətkar şəxsiyyətinin spesfikasını aydınlaşdırmaq baxımından son dərəcə əhəmiyyətlidir. Azərbaycan aşıq poeziyasının Növrəs İman fenomeni məhz bu mövzuda olan əsərlərdə görünür. Bu əsərləri oxuyarkən aşıq bütün varlığı ilə dini-ruhani dəyərlərə dərindən bağlı, İslami yaşamın həm mənəvi, həm praktiki yönlərinə tamamilə sadiq, imanlı bir mömin, kamil bir şəxsiyyət, vergili bir “haqq aşığı” olaraq gözlərimiz önündə canlanır. Növrəs İmanın ilham çeşməsi elə bir ruhani-ilahi potensiyadan qaynaqlanır ki, məhz bir neçə yüz illik aşıq poeziyasının Miskin Abdal, Qurbani, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər kimi övliya nümayəndələri, haqq aşıqları da bu mənbədən qidalanmış, öz ilhamlarını oradan almışdılar.

Şairin əksər müasirlərinin poeziyasında dini-terminoloji baza, təsəvvüfi metaforalar sistemi qorunub saxlanılsa da, məzmun deformasiyaya uğramış, təsəvvüfi motivlərin poeziyada statusu estetik

səviyyə ilə məhdudlaşmışdır. Növrəs İmanda isə poetikliyin və estetizmin özü belə sanki dini-fəlsəfi ideyaların ifadəsi və təsəvvüfi-əxlaqi dəyərlərin təbliği üçün bir vasitə olaraq çıxış edir. Bundan əlavə, Nəsimidə olduğu kimi ilahi dəyər kəsb etmiş poetik mənin tərənnümü sırf fərdi-mistik yaşantıdan qaynaqlanır:

Övladi-Məhəmməd nəsli-əladan
Almışam qeybdən bir nişanı mən.
Ruhum bəli deyib qalu-bəladan,
Bəyənmişəm doğru yol-ərkanı mən[16].

Növrəs İmanın yaşadığı dövrün ümumi ictimai-siyasi və sosial-mədəni prosesləri kontekstində onun yaradıcılığında dini-ruhani dəyərlər ənənədən gəlməsə də, bütövlükdə Növrəs İmanın haqq aşıqlığı fenomeni Göyçə aşıq mühitinin irfani ənənəsindən qaynaqlanırdı. Ancaq Göyçə aşıq mühiti özünün uzun əsrlik inkişafı ərzində müxtəlif mərhələlərdən keçdiyindən və hər mərhələdə də dini-ruhani ideyaların aşıq poeziyasında ifadəsi fərqli məzmun kəsb etdiyindən, məsələyə nisbətən lokal zaman kontekstində baxmaq lazımdır. Biz, Növrəs İman poeziyasında dini-təsəvvüfi məzmun ənənədən gəlmir, deyərkən, əsasən onu nəzərdə tuturuq ki, aşığın yaşadığı XX əsrin əvvəlləri üçün təsəvvüfi məzmun sistemdənkənar hadisə idi. Bütövlükdə isə aşığın dini-ruhani dəyərlərə bağlılığı, heç şübhəsiz, Göyçə aşıq mühitindən, ənənədən gəlirdi. Başqa sözlə ifadə etsək, Göyçə aşıq mühitində XX əsrin əvvəlləri üçün arxaik olan təsəvvüf Növrəs İman poeziyası timsalında yenidən əhya edir.

Dissertasiyanın ikinci fəslinin üçüncü yarımfəsli “Dini-irfani lirika” adlanır. Növrəs İman poeziyasında özünü müstəqil mövzu statusunda göstərən, buna görə də üzərində xüsusi dayanmaq lazım gələn istiqamətlərdən biri də aşığın təsəvvüfi görüşləridir. Təsəvvüfi məzmunun Növrəs İman poeziyasında poetik təzahürü yekcins xarakterli deyildir. Biz burada birbaşa təsəvvüfi yaşantıdan qaynaqlanan, mistik coşğunluğu özündə ifadə edən nümunələrə də rast gəlirik, ilahi eşqin və ya hicranın poetik fəlsəfi səviyyədə tərənnümünə də. Bəzən isə aşıq sufi simvolikaya meyllənir, mistik fəhmlə ona bəlli olan ezoterik (pünhan) mətləblərdən simvolik olaraq bəhs edir.

Ancaq aşığın təsəvvüfi məzmunlu şeirləri bütün hallarda onun

---

[16] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s. 174

ilahi eşq yolunun yolçusu olduğuna, öz taleyini bu sevdaya bağladığına şahidlik edir. Sırf dini məzmunlu şeirlərindən fərqli olaraq aşığın təsəvvüfi məzmunlu əsərlərində poetiklik, bədiilik daha güclüdür. Şairin bu mövzuda olan əsərlərində mistik təcrübənin poetik-mistik yaşantısı ilə tanış oluruq. Bu mənada onun təsəvvüfi məzmunlu şeirləri daha çox sənət hadisəsidir.

Aşığın "Mənim" rədifli divanisindəki poetik ovqata diqqət edək:

| | |
|---|---|
| Ay ağalar təngə gəlib, | Axtarıram hər tərəfi, |
| Bu yazıq canım mənim. | Yoxdu mənə əhli-dil; |
| Taqət yoxdu cəsədimdə, | Nə xəstəyəm, nə salamat |
| Quruyub qanım mənim. | Gələ dərmanım mənim[17]. |

Eyni mistik transın ifadəsi Qurbanidə "nə yatmış idim, nə oyaq" şəklində ifadə olunur. Klassik ədəbiyyatda sufi poeziyasının son nümayəndələrindən biri olan Nəbati isə bu psixoloji çöküntünü aşağıdakı kimi ifadə etmişdir:

Pəri balü bəstə darəm,
Hələ ləng, ləng, ləngəm.
Tənü-zarü xəstə darəm,
Hələ ləng, ləng, ləngəm.

Xəstəliklə sağlamlığın, yuxu ilə ayıqlığın, ağıllılıqla dəliliyin arasında ilk baxışdan adi məntiqlə anlaşılmayan, yalnız mistik yaşantı sahiblərinə bəlli olan diffuz zonaları mövcuddur. Bu poetik nümunə məhz həmin zonada poetik-mistik yaşantının nəticəsi olaraq yaranmışdır. Bu məqamda Növrəs İman ariflik mərhələsindədir. Ərzurumlu İbrahim Həqqi arif barədə yazır: "Zahid yeriyən, arif isə uçandır. Alim söylədiklərindən aşağıda, arif isə söylədiklərindən yuxarıdadır"[18].

Növrəs İmanın təsəvvüfi məzmunda olan elə əsərləri də vardır ki, orada mistik yaşantının ifadəsi əks olunmasa da, əxlaqda təsəvvüfi davranış prinsipləri əks olunmuşdur. Aşığın bu tipli əsərlərində təsəvvüfi terminologiyadan geniş istifadə olunur. Məlumdur ki, təsəvvüfdə daxili-mənəvi kamilləşmənin ən universal modeli kimi dörd mərhələli inkişaf (şəriət, təriqət, mərifət, həqiqət) daha geniş yayılmışdır. Aşıq həmin anlayışlar işığında yazır:

---

[17] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s. 139

[18] Erzurumi İbrahim Həqqi. Mərifetname, İstanbul, Merve Yayınevi, 1992, s. 509

| | |
|---|---|
| Kişi üçün əzəl gündən | Həqiqətdən əxz eyləyə. |
| Başda çox kamal gərək; | Mərifətdən anlaya; |
| Sərf etməyə doğru yola | Məşhər günü olmayacaq |
| Əsəldən zülal gərək. | Ona dövlət-mal gərək[19]. |

Ayrıca bir təlim olan təsəvvüfün mənəvi kamilləşmə modeli beləcə Növrəs İman poeziyasında total əxlaqın davranış stereotipinə çevrilir.

Üçüncü yarımfəslin birinci bölməsi "*Növrəs İman lirikasında dini anlayışlar*" adlanır.

Növrəs İmanın təsəvvüf ağırlıqlı şeirlərində keçən dini termin və anlayışlar onun dünyagörüşündən xəbər verməklə bərabər aşığın təsəvvüfə bağlılığını da göstərir. Təbii ki, dini anlayışların başında aşığın da yüksək pafosla tərənnüm etdiyi cənab Allah, Həzrət peyğəmbər, Həzrət Əli və b. gəlir.

**A) Allah.** Növrəs İmanın dini-təsəvvüfi şeirləri içərisində əsas aparıcı motiv insanın Allaha inamıdır. O, Allaha səmimi bir imanla dərindən bağlı mömin olmuşdur:

| | |
|---|---|
| Bu dünyada əqdəm olan | Bir vəliyullah əzəl; |
| Təkdi bir Allah əzəl | Ərşə, kürşə bais oldu |
| Öz nurundan xəlq eyləyib | Onların nuru, qələm, |
| Ol Rəsulullah əzəl; | Əşədənnə la ilahə, |
| Şiri-davər ismi oldu | Yazdı, illəllah əzəl[20]. |

Bu nümunədə əksini tapan Allah haqqında görüşlər dini-teoloji baxışların poetik baxımdan nəzmə çəkilməsidir. Məlumdur ki, teoloji görüşlərə görə Allah vahid, əzəli və əbədi varlıqdır. Onun nə əvvəli, nə də sonu vardır. Aşıq teoloji sistemdə olan hazır tezisləri poetikləşdirmişdir.

**B) Peyğəmbər.** Növrəs İmanın dini mövzuda yazılan şeirlərinin böyük əksəriyyəti İslam peyğəmbəri Məhəmməd əleyhissalamın tərifinə və tərənnümünə həsr olunmuşdur. Bu şeirlərdən məlum olur ki, aşıq İslam tarixini, peyğəmbərin həyatını, onun İslam dininin intişarı uğrunda apardığı mübarizələri mükəmməl olaraq bilmiş, bütün bunları poetik bir dildə qələmə almışdır. Tarixi-dini informasiyanın poetik informasiyaya çevrilməsi ilə peyğəmbərin bədii obrazının yaradılması faktına şairin əsərlərində tez-tez təsadüf olunur. Ümumiyyətlə, bəşər tarixinin İslamın təqdim etdiyi modeldə nəzmə çəkilməsi ilə Növrəs İman poeziyasında

[1919] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s. 135
[20] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.132

tez-tez rastlaşırıq. İslam peyğəmbəri Məhəmməd əleyhissəlam da məhz bu tarix kontekstində təqdim olunur. Aşığın tarix haqqında təsəvvürlərində İslam peyğəmbəri Məhəmməd əleyhissəlamla bağlı dövr bəşər tarixinin ən şərəfli səhifəsi kimi təqdim edilir:

Fani dünya yola salıb — Məhəmməd əl Mustafa tək
Neçə min peyğəmbəri — Kainatın rəhbəri
Övliyanı, övsiyanı, — Özü edib ərşə merac
Tamam ali heydəri — Alıb haqdan xəbəri
Süleyman tək Şah necoldu — Bizə qoyu getdiyi bir
Aparıb ol sərvəri — Doğru yol, ərkan durur[21].

Məlum olduğu kimi, İslam teologiyasında Həzrəti Məhəmməd sonuncu peyğəmbər olduğundan "xətmi-mürsəl" adlanır. Növrəs İman da məhz peyğəmbərlik statusunda "xətmi-ənbiyalığı" xüsusi olaraq diqqətə çarpdırmaqla peyğəmbərin külli-aləmin əşrəfi olduğunu göstərir:

Xətmi-mürsələşrəf oldu
Külli-aləm bildi düz.
Dinimizə rövnəq verən
Doğru kalamdı hənuz.

Peyğəmbərlə bağlı Növrəs İman poeziyasında aktiv işlədilən motivlərdən biri meracdır. Məlumdur ki, merac peyğəmbərin həyatında ən mühüm hadisələr-dəndir. Merac anlayışı özündə Məhəmməd peyğəmbərin Burak adlı bir miniklə yerdən Allah dərgahına səyahətini ehtiva edir. Hədislərdə, dini rəvayətlərdə meracla bağlı çoxlu sayda məlumatlar vardır. Klassik divan ədəbiyyatında, peyğəmbərin həyatı ilə bağlı yazılmış bədii əsərlərdə merac mövzusu mühüm yer tutur. Bu ənənələrə söykənən Növrəs İman peyğəmbərin meracı ilə bağlı ayrıca iri həcmli bir meracnamə yazmışdır. Növrəs İmanın meracnaməsi bir tərəfdən meracla bağlı mövcüd dini informasiyaların poetik baxımdan nəzmə çəkilməsinə əsaslanırsa, digər tərəfdən də onun fərdi dini emosiyalarını əks etdirir. Peyğəmbərin ilahi səma yolçuluğunu Növrəs İman belə təsvir edir:

Həbibi-ilahi mindi Buraqı
Məlakələr tutdu solunan sağı,
Yüz min ikramilən əziz qonağı,
Açdı bulud pərin, xub saldı sayə[22].

---

[21] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.130
[22] Yenə orada, s.60

Peyğəmbərin Burakla qalxdığı yolun sağında və solunda mələklər cərgə ilə düzülür. Buludlar belə onun üzərinə kölgə salmaqla peyğəmbərə öz məhəbbətlərini izhar edirlər. Həmçinin bütün mələklər peyğəmbərin pişvazına çıxırlar. Haqq dərgahında peyğəmbərlə Allah təala arasında olan söhbəti aşıq belə təsvir edir:

Sual-cavab, çox sirrlər danışdı,
Əl-əhdi-vəfadan xeyli tutuşdu,
Ümmətin halını bildi, yetişdi,
Dil açdı biz üçün rəbbi-əlaya [23]

Burada aşıq məşhur "qalu bəla" (dedilər bəli) əhvalatına işarə etmişdir. Qurani-Kərimdə bildirilir ki, Allah ruhları yer üzərinə göndərməmişdən əvvəl onları öz dərgahına yığıb soruşur: Mən sizin rəbbinizəmmi? Bütün ruhlar isə cavab verirlər ki, bəli! Bu motiv təsəvvüf ədəbiyyatında son dərəcə aktiv olaraq işlədilir. Bu əhvalatın təsəvvüfi interpretasiyasında bu məqam Allahla insan arasında əhdi-vəfa məqamı kimi mənalandırılır. İnsan bu dünyaya Allahla əhdi-peyman bağlayaraq gəlmişdir. Əgər o, Allahı daim zikr edirsə, əhdinə sadiqdir. Yox, əgər Allahı unudursa, deməli əhdinə dönük çıxmışdır. Göründüyü kimi, təsəvvüf təliminin ümumi ruhuna uyğun olaraq Allah-insan münasibətləri sevgi müstəvisinə gətirilir. Növrəs İman da "əl-əhdi-vəfadan xeyli tutuşdu" -misrası ilə bu əhvalata işarə etmişdir.

**C) Şəriət.** Növrəs İmanın dini-təsəvvüfi poeziyasında din və təsəvvüf, eşq və ağıl bir-birini inkar etmir. Əksinə bir-birinin tamamlayıcısı kimi çıxış edir. Məlumdur ki, təsəvvüfi məzmunlu bədii əsərlərdə coşğun bir ilahi ruh əksər hallarda şeirin əsas bədii pafosunu təşkil edərək, şəriət hüdudlarını aşıb keçir. Növrəs İmanda isə normativ şəriət prinsiplərinə sadiqlik daim qorunub saxlanılır. Hətta bəzən bu cəhət o qədər qabarıq nəzərə çarpır ki, şeir nümunələri poetik teologiya təsiri bağışlayır:

Rəsulallah merac etdi,
Gətirdi oruc-namaz,
Mömin olar tutub qılan
Xoşdur dildə avazı

İki mələk müvəkkildir
Səvab-üsyanı yazı
Günahkarı yandıracaq
Nari-niran başabaş[24].

Artıq bu, sırf dindir. Burada nə ilahi eşq, nə təsəvvüfi simvolika, nə fərdi mistik yaşantı yoxdur. Lakin bütün bunlarla yanaşı, bu

---

[23] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.61
[24] Yenə orada, s.123

misralarında aşıq yüksək poetik coşğunluq olan əsərlərində olduğu kimi səmimidir.

**Ç) Şiəlik.** Növrəs İmanın dini-təsəvvüfi əsərləri içərisində şiə görüşlərinin, Həzrəti Əli əleyhissəlamın tərənnümünə həsr olunmuş şeirlərin xüsüsi yeri vardır. Şiə məzhəbi ilə bağlı olan dini rəvayətlər, on iki imam, Kərbala müsibəti, Əkbər yası, Fatimeyi-Zəhra, nəhayət İmam Əli Növrəs İman poeziyasında müntəzəm müraciət edilən mövzulardır. Bu xüsusiyyət, təbii ki, aşıq sənətinin bağlı olduğu təsəvvüfi və şiə görüşlərindən irəli gəlir. Tədqiqatçıların məlumatına əsasən deyə bilərik ki, təsəvvüf təlimi ilkin orta əsrlərdə daha çox sünni məzhəbi arasında geniş yayılmışdır. Lakin XIV əsrdən başlayaraq təsəvvüfün bir neçə qolları şiə görüşləri ilə sintez olunmağa başlamışdır. Orta əsrlərdə Şərqin xalq hərəkatları barədə məlumat verən İ.P.Petruşevski yazır: "Bütün bu hərəkatların ideologiyasını müsəlman mistisizminin (sufizmin) bir neçə cərəyanı ilə birləşmiş şiəlik təşkil edirdi. Şiəliklə sufizm arasında sıx əlaqə məhz bu dövrdə möhkəmlənmişdir"[25].

**D) İmam Əli.** Aşığın şiə görüşlərini əks etdirən əsərləri içərisində zirvə məqamını Həzrət Əliyə həsr olunmuş şeirlər təşkil edir. Növrəs İman səmimi bir Əli aşiqidir. Onun nəzərində Həzrət Əli insan kamilliyinin kulminasiya məqamıdır. Ən ali mənəvi dəyərlər, ən müqəddəs sifətlər, ən əxlaqi keyfiyyətlər onun timsalında birləşir. Aşıq bu ilahi şəxsiyyətə qovuşmağın həsrəti ilə alışıb yanır. Bu həsrət o qədər səmimidir ki, bəzən aşığın dünyəvi məhəbbət məzmunlu əsərləri ilə eyni səviyyədə görünür:

Bir yaralı qulam, düşmənəm çölə,
Bülbül kimi həsrət olmuşan gülə.
İman deyər, işim dönüb müşgülə,
Rəhim eylə mən cavana, gəl yetiş![26]

Bu həsrət gözəlin həsrətini çəkən aşiqin hicran əzabları deyil, Həzrət Əliyə qovuşmaq istəyən möminin qəlb fəryadıdır. Növrəs İman şeirlərindən görünən Həzrət Əlinin şəxsiyyəti real tarixi şəxsiyyət olmaqdan daha çox, əfsanə dumanına bürünmüşdür. Bu əfsanəvilik daha çox onun qəhrəmanlığı ilə bağlı motivlərdə özünü göstərir:

Şiri-davər, ismi heydər,     Tifil vaxtı əjdahanı

---

[25] Петрушевский И. Шиитское движение в Азербайджане// Известия Азербайджанского филиала. Баку: 1944, № 7, s.93
[26] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.51

Şahi-mərdan, ya Əli! Şəqq edən kəhvarədə;
Fəthi-Xeybər, qətli-Əntər, O səbəbdən bir adındı
Mərdi-meydan, ya Əli! "Şiri-Yəzdən", ya Əli![27]

Fiziki qəhrəmanlıq ona görə bu qədər sevgi və rəğbət doğurur ki, o haqq və ədalət uğrunda sərf olunur. Fiziki qüdrət mənəvi-ruhani anlam olmadan heç bir əhəmiyyət daşımır. Həzrət Əli fiziki qüdrətlə mənəvi kamilliyi özündə birləşdirən şəxsiyyətdir. Onun imanı ən ali yəqinlik səviyyəsində, daxili mənəvi-ruhani dünyası son dərəcə zəngin, qəhrəmanlığı isə ən qüdrətli sərkərdədən belə qüdrətlidir.

Növrəs İman poeziyasında Həzrət Əli obrazının əsas xarakterik xüsusiyyətlərindən biri onun xilaskarlıq missiyası ilə bağlıdır. Aşığa görə Həzrət Əli öz zamanında cəmiyyətdə mənəvi harmoniyanın təminatçısı olduğu kimi, bütün zamanlarda insanların yardımına yetən, müşkülləri həll edən sakral bir varlıqdır. Həzrət Əli şəxsiyyətinin sakrallaşdırılması məhz onun xilaskarlıq missiyasında daha qabarıq üzə çıxır:

Bir hökmü-xudanın elmin açarı,
Nəzər eylə bu cavana, gəl yetiş.
Külli – məsəvanın tək şahsuvarı,
Dönübdü ciyərim qana, gəl yetiş.

Əgər poetik kontekstdən çıxış etsək, burada diyar anlayışı bu cahanın əks qütbündə dayanan əbədi həyatı, aləmi-məlakutu işarələyir. Aşıq o diyara yetişmək üçün yardımı Həzrət Əlidən istəyir. Deməli Növrəs İmanın poetik təfəkküründə, alt qatda olsa da, Həzrət Əlinin mediator funksiyası qabarıqdır. Həzrət Əli obrazının şaman görüşlərindən qaynaqlanan arxaik mediator obrazın teoloji transformasiyası statusunda təzahür etməsi aşıq poeziyasında aktiv müşahidə olunur. Əski türk etnik mifoloji görüşləri ilə şaman görüşlərini özündə birləşdirən xalq sufizmi və ələvi-bəktaşi görüşləri Hz. Əli obrazının xarakter xüsusiyyətinə təsir edən əsas amillərdəndir ki, bunun da izlərinə Növrəs İmanın şeirlərində tez-tez təsadüf edirik.

Üçüncü yarımfəslin ikinci bölməsində Növrəs İman yaradıcılığında *bəzi irfani motivlərdən* bəhs olunur. Növrəs İmanın ictimai məzmunlu əsərləri içərisində *qürbət mövzusu* mühüm yer tutur. Bu cəhət bir tərəfdən şairin nakam bioqrafiyasından, digər tərəfdən isə yenə də dini-təsəvvüfi dünyagörüşündən irəli gəlir. Qürbət mövzusunda olan şeirlər üzərində

[27] Yenə orada, s.146

müşahidələr bu əsərlərdə real vətəndən ayrılığı ifadə edən qürbətlə irfani məzmunlu qürbətin vəhdətdə olduğunu göstərir. Şairin qürbət mövzusunda olan əsərlərinə dərin bir kədər, qəm, qüssə hakimdir.

Qəzanın gərdişi tərsə dolandı,
Necə düşdüm əziz eldən aralı.
Ömrümün gülşəni yeksər talandı,
Bülbül kimi oldum güldən aralı [28]

Aşıq qəribliyinin səbəbini konkret açıb göstərməsə də, "qəzanın gərdişi tərsə dolandı" deyərək, onun ictimai səbəblərlə əlaqədar olduğuna işarə edir. Ümumiyyətlə, aşığın qürbət mövzusunda olan əsərlərində sosial-ictimai gerçəklikdən şikayət motivləri də kifayət qədər güclüdür. Əsasında təsəvvüf dayanmasına baxmayaraq, aşığın özünün real qürbət yaşaması onun şeirlərində bu motivləri daha da qabarıqlaşdırır.

Dissertasiyanın III fəsli **"Aşığın poeziyasında sənətkarlıq və poetik dil məsələsi"** adlanır. Bu fəsil dörd yarımfəsildən və iki bölmədən ibarətdir. *"Növrəs İmanın yaradıcılığında ustadnamələr mənəvi-əxlaqi dəyər və sənətkarlıq nümunəsi kimi"* adlanan birinci yarımfəsil

Növrəs İmanın ustadnamələrində yaxşı ilə pis, gözəllə eybəcər, əyri ilə düz qarşılıqlı müqayisədə, vahid kontekstdə əks olunmaqla aşığın əxlaqi görüşlərini özündə sistemli olaraq əks etdirir. Aşıq "Demək olmaz" rədifli qoşmasında Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım səviyyəsində ustadnamənin klassik nümunəsini yaratmaqla yuxarıda göstərdiyimiz əks qarşıdurma paralelizmini poetik mükəmməlliklə təqdim etməyə nail olmuşdur:

Hamı xəlq olunub bir qətrə sudan,
Hər yetən gədaya xan demək olmaz.
Yatıb, qəflətdədi, qalxmaz yuxudan,
Nalayiq insana can demək olmaz [29].

Bu bənddə şair cəmiyyətdə mənəvi eybəcərliyin daşıyıcısı olan insanları ayırıb fərqləndirməyin, onların layiq olmadığı mərtəbədə dəyərləndirilməsinin düzgün olmadığını mənəvi prinsip olaraq hökm şəklində bəyan etmişdir. Şairə görə, nalayiq insanların timsalında özünü göstərən mənəvi eybəcərliklərin kökündə cahillik və qəflət dayanır.

[28] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.21
[29] Yenə orada, s.35

“Qəflətdə yatıb, heç zaman yuxudan qalxmayan” cahil, ilk növbədə, ilahi həqiqətdən, haradan gəlib haraya getdiyindən, dünyanın ümumi fəlsəfi mahiyyətindən bixəbərdir. Bu bixəbərlik, cəhalət isə onun cəmiyyətdəki sosial statusunun əsas müəyyənləşdiricisidir. İctimai eybəcərliyin bu kontekstdə dəyərləndirilməsi aşığın dini-irfani dəyərlərə bağlılığından, onun poetik təfəkküründə bu dünyagörüşün hakim mövqeyindən irəli gəlir. Qoşmanın növbəti bəndində şair cəmiyyətdə mənəvi eybəcərlik daşıyıcısı olan insanın digər əlamətlərini aşağıdakı kimi sadalayır:

Əyri olan bilməz yolu, ərkanı,
Saxlayar könlündə şəri, böhtanı.
Bədəsil tanımaz yaxşı, yamanı,
Namərd süfrəsində nan demək olmaz [30]

Deməli, aşığın yanaşmasına görə, cəmiyyətdə sosial nizamın təminedicisi olaraq vahid ümumi mənəvi yol, ərkan vardır ki, bu prinsiplərə hər bir kəs əməl etməlidir. Aşığın ümumi dünyagörüşü kontekstindən çıxış etsək, bu, əsasında dini və təsəvvüfi baxışlar dayanan universal etnik mənəvi-əxlaqi dəyərlər sistemidir. Aşığa görə, cəmiyyətdaxili münasibətlərin harmoniyası yalnız və yalnız bu prinsiplərə əməl edərəkdən qorunub saxlanıla bilər.

Növrəs İman ustadnamələrində xüsusi ayırıb fərqləndirilməli cəhətlərdən biri ondan ibarətdir ki, bu əsərlərdə ictimai eybəcərlik və qeyri-əxlaqi insani xüsusiyyətlər tənqid olunmaqla və ali mənəvi-əxlaqi dəyərlər təbliğ olunmaqla yanaşı, bu prinsipləri doğuran sistemli fəlsəfi dünyagörüşün, təsəvvüfi dünya modelinin bəzi mühüm postulatları da məqamında şeirlərdə əks olunmuşdur.

Üçüncü fəslin “*Növrəs İmanın təcnis sənətkarlığı*” adlanan ikinci bölməsində aşıq poeziyasının zəngin ənənələri zəminində yetişmiş Növrəs İmanın təcnisin ən gözəl nümunələrini yaratması vurğulanmış, onun əldə edilmiş əsərləri içərisində elm aləminə 15-i adi (qara təcnis, adi təcnis), 3-ü dodaqdəyməz, 2-i cığalı, 1-i dodaqdəyməz cığalı olmaqla cəmi 21 təcnis bəlli olması göstərilmişdir. Göründüyü kimi, Növrəs İman yaradıcılığında adi təcnis çoxluq təşkil edir. Konkret bir nümunə əsasında Növrəs İmanın cinas yaratmaq sənətkarlığı ilə də yaxından tanış olaq:

Ey təzə şahbazım, həm sərvnazım,

[30] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.35

Qulluğuna bir ərzim var, Sənəm, al!
Yolunda sadağa candı niyazım,
Layiq deyil qurban kəsəm sənə mal.

Götürmüşəm çox sağalmaz yara mən,
Qəm çəkərmi ləblərindən, yar, əmən!?
Layiq olsam qulluğunda yara mən,
Geydirərəm al üstündən, Sənəm, al.

Növrəs İman, günün gəldi nə qara!
Bad əsdi, zimistan oldu nə qara.
Çarxı-gərdiş yenə çaldı naqara,
Ay, gün kəmənd atdı, qurdu Sənəm, al[31]

Nümunə gətirdiyimiz şeirdə "Sənəm al" dörd müxtəlif məqamda dörd müxtəlif mənada işlədilməklə son dərəcə maraqlı, poetik baxımdan mükəmməl cinas sistemi yaradılmışdır:

1. "Sənəm, al!" - Cinas bir tərəfdən Sənəm adlı gözələ müraciət etmək, digər tərəfdən "almaq" felini əmr formasında işlətməklə yaradılmışdır;

2. "Sənə mal" - Cinas bir tərəfdən ikinci şəxsin təki olan "sən"in yönlük halda işlədilməsi, digər tərəfdən heyvanatı bildirən mal sözünün adlıq halda işlədilməsi ilə yaradılmışdır;

3. "Sənəm, al" - Burada da cinas Sənəmə müraciətlə, "al"(qırmızı geyim) sözünü ismin adlıq halında işlətməklə yaradılmışdır;

4. "Sənəm, al" - Burada da cinas Sənəmə müraciətlə al (hiylə) sözünü adlıq halda işlətməklə yaradılmışdır.

Göründüyü kimi, ustad sənətkar bir tərəfdən dilin qrammatik səviyyəsində omonimləşmə potensialından məharətlə istifadə etməklə, digər tərəfdən isə ayrı-ayrı sözlərin morfoloji dəyişməsi əsasında mükəmməl cinas sistemi yaratmağa nail olmuşdur. Xüsusi qeyd olunmalı cəhət ondan ibarətdir ki, poetexnoloji proses olaraq yaradılan cinas qafiyə sistemi şeirdə ifadə olunan hissi-emosional ovqatı – sevən aşığın psixoloji ovqatını nəinki zədələmir, əksinə məzmunun poetik baxımdan daha mükəmməl çatdırılmasına xidmət edir.

---

[31] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.109

Üçüncü fəslin "*Növrəs İmanın deyişmə sənətkarlığı*" adlanan üçüncü yarımfəslində qeyd olunur ki, Növrəs İmanın poeziyasında deyişmə formalarının hər üçünə (Aşığın özü, könlündə tutduğu xəyali obraz və ya sevgilisi, yaxud əli yetmədiyi bir adamla deyişməsi; aşığın hansısa sənətkara, aşiqə bir neçə bənd qıfılbənd yollayıb ondan cavab istəməsi; məclislərdə, yığnaqlarda aşıqların bir-biri ilə deyişməsi) rast gəlirik. Aşığın Şəkər adlı qızla və Qeysər adlı aşıqla deyişmələri onun öz xəyalının məhsuludur. Hər iki tərəfin sözləri İmanın özü tərəfindən qələmə alınmışdır. Şəkərlə deyişmə haqqında folklorşünas alim İslam Ələsgər "şeirin hər ikisini İman öz demişdir" kimi qısa bir qeyd vermişdir. Türk aşığı Qeysərlə deyişmə haqqında isə İ. Ələsgər aşağıdakı qeydi vermişdir: "Aşıqların söyləməsinə görə, İman guya Rum elinə səfər etmiş, orada Qeysər adlı bir aşıqla qarşılaşmış və onunla deyişmişdir. Əslində isə belə bir səfər olmamışdır. Oxuculara təqdim olunan bu deyişmələrin hər iki tərəfi İmanın öz yaradıcılığı olduğu kimi, söylənilən əhvalat da onun təxəyyülünün məhsuludur" [32]. Növrəs İmanın Aşıq Qeysərlə üç deyişmə nümunəsi vardır. Bundan əlavə, Növrəs İmanın Usta Abdulla Aşıq Sadıqla da deyişmələri də vardır.

Üçüncü fəslin dördüncü yarımfəsli "*Şeirlərin bədii dil xüsusiyyətləri (bədii təsvir və ifadə vasitələri)*" adlanır. Bu yarımfəsildə a□□q poeziyas□n□n z□ngin □n□n□l□ri z□minind□ yeti□□n Nyvr□s □man poeziyas□nda b□dii t□svir v□ b□dii ifad□ vasit□l□ri t□dqiq edilir.

**A) Epitet -**

**Əlif qəddin, qələm qaşın**
Üstündən **ayna qabağı**;
**Şəhla gözün, narın üzün**
Xub yaraşır **gül yanağın**
**Qulac qolun, nazik belin**
Sədr üstən **büllur buxaqı;**
Zənəxdanın yaraşığı
Lalə tək əhmər dodağı
Bir-birindən gözəlliyi
Şövkəti-Rizvan kimidir[33].

(*Nümunə gətirdiyimiz şeir parçasında aşıq son dərəcə zəngin məcazlar sistemi yaratmağa nail olmuşdur. Bu məcazlar sisteminin əsasını epitetlər silsiləsi təşkil edir. Aşıq gözəlin zahiri əlamətlərini nəzərə çarpdırmaq üçün gözəlin boyunu "Əlif" hərfinə, qaşlarını qələmə, gözlərini şəhlaya, yanağını gülə, buxağını büllura, dodağını laləyə bənzətmişdir*).

---

[32] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.188
[33] Yenə orada, s.161

**B) Təşbeh-**

Zənəxdanın yaraşığı     Bir-birindən gözəlliyi
Lalə tək əhmər dodağı     Şövkəti-Rizvan kimidir [34].

(*Bu mətndə "lalə tək əhmər (qırmızı) dodaq" tam, müfəssəl təşbehdir. Burada təşbehi meydana gətirən bütün tərkib hissələr bənzəyən (dodaq) bənzədilən (lalə) bənzətmə qoşması (tək), bənzətmə əlaməti (əhmər) işlədilmişdir*).

**C) Metafora -**

İman dərdin dəryalara qatılıb,    Şeyda bülbül dar qəfəsə atılıb,
Zər mətahın mis yerinə satılıb, Onun naləsindən gül inciməzmi?[35]

(*Misal gətirdiyimiz bənddə insana məxsus olan incimək əlaməti gülün üzərinə köçürülməklə metafora yaradılmışdır*)

**Ç) Metonimiya -**

Bir barlı baxçaydım, barım kəsildi,    Vətənimdən etibarım kəsildi,
Vaxsız xəzan oldu, karım kəsildi,     Qürbət ellər mənə yağı görünür[36]

(*Bu nümunədə aşıq "qürbət ellər" deyərkən qürbət eldə yaşayanları nəzərdə tutur*).

- Növrəs İman yaradıcılığından konkret misallar əsasında təqdim edilir.

**D) Simvol.** Növrəs İmanın şeirlərində ən çox işlənən bədii-üslubi fiqurlardan biri simvollardır. Bunun da əsas səbəbi aşığın poeziyasında təsəvvüfi məzmunun qabarıq olması, dini-təsəvvüfi mətləblərin geniş əks olunmasıdır. Məlum olduğu kimi, təsəvvüfi məzmunlu şeirlərdə simvollardan istifadə Şərq ədəbiyyatında və klassik poeziyada aktiv olmuşdur. Aşıq sənətinin həm təriqət, həm saray, həm də sənətçilik mərhələlərində təsəvvüfi məzmunun ifadəsi ilə əlaqədar olaraq poetik mətn arsenalında simvolizm tarixən təşəkkül tapmış, bu poeziyanın əsas əlamətlərindən biri kimi normativləşmişdir. Aşığın şeirlərində simvollardan istifadəni üç qrupa ayırmaq olar:

1. Ənənəvi simvolika;
2. Hərf simvolikası;
3. Rəqəm simvolikası.

Ənənəvi simvollardan istifadəyə daha çox aşığın ustadnamələrində və gözəlləmələrində rast gəlirik. Birinci qrupa daxil

---

[34] Yenə orada, s. 161
[35] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s. 68
[36] Yenə orada, s. 57

olan simvollarda Şərq ədəbiyyatında eşq fədailərinə çevrilmiş Məcnun, Leyli, Fərhad, Şirin və s. kimi obrazlardan istifadə edilir:

Yusifi-Misridən eşqim ziyadə,
Nə Məcnun, nə Kərəm gəlmirmi yada?
Yetim, Lələ, Sənan, cavan Fərhada,
Onlardan istəkli yarım var mənim[37].

Bu bənddə Misirli Yusif, Məcnun, Kərəm, Yetim, Lələ, Sənan, Fərhad gözəl sevgililəri olan şəxslər kimi simvollaşdırılmışdır. Aşıq öz sevgilisinin onların sevgililərindən daha gözəl olduğunu bildirir.

Növrəs İman zəngin bilik sahibi olduğu üçün digər aşıqlarla müqayisədə dinlər tarixini, peyğəmbərlərin qissələrini, real tarixi hadisələri dərindən bilmiş, öz şeirlərində tarixi şəxsiyyətləri, peyğəmbərləri, əfsanəvi obrazları simvol statusunda işlətmişdir. Lakin bir məsələni nəzərə almaq lazımdır ki, aşıq bütün bu obrazlardan həmişə simvolik olaraq bəhs etmir. Aşığın şeirlərində bir çox hallarda tarixi şəxsiyyətlər, kultlaşmış dini obrazlar elə tarixi məzmunda da işlədilir.

Növrəs İman poeziyasında hərf simvolikasından aktiv istifadə olunur. Məlum olduğu kimi, Şərq poeziyasının ideya əsasında dayanan təsəvvüfi görüşlərlə əlaqədar olaraq klassik poeziyada hərf simvolikası geniş yayılmış, xüsusən Hürufilik təriqətinə mənsub olan Nəsimi poeziyasında özünün zirvə məqamına çatmışdır. Aşıq poeziyasında da Növrəs İmana qədər hərf simvolikası ustad sənətkarlar tərəfindən, xüsusən təsəvvüfə bağlı aşıqlar tərəfindən dəfələrlə işlədilmişdir. Hətta aşıq poeziyasında hərf simvolikası ilə əlaqədar olaraq "əlifbey" və "tərs əlifbey" şeir formaları meydana gəlmişdir. Bu formanın özünəməxsus cəhəti ondan ibarətdir ki, ərəb əlifbasının 28 hərflərinin hər biri başdan ayağa şeirdə əks olunmalı, həmçinin simvolik olaraq dini-təsəvvüfi məzmun daşımalıdır. Bu formaların mükəmməl nümunələrini yaratmaq aşıqdan poetik istedadla bərabər zəngin dini biliklər də tələb edir. Dinlər tarixinin, xüsusən İslamın mükəmməl bilicisi olan Növrəs İman bu formaların hər ikisində maraqlı divani nümunələri yaratmışdır.

"Əlif" - əvvəl, ismi-Allah,
Etiqad et, sən də qan.
"Be" – birliyin izhar edir,
Bundan axtar, bil, inan.
"Te" – təbarək, təkdi onun

"Cim" – cəlildi, həm cabbardı,
Çox ucadı cəlalı.
"He" – halıdı hər əhvalatdan,
Bilir haram, halalı.
"Xe" – xaliqdi, xidmətində

[37] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.95

Hikmətində insü can; Yoxdu xofi xəyalı
"Se" – sabitdi, sübutu var, "Dal" – dəlalət, dəlil verib,
Bilməyən biganədir. Doğru din, ərkanədir[38].

Növrəs İmanın şeirlərində rəqəm simvolikasından da kifayət qədər geniş istifadə olunmuşdur. Xüsusən, aşıq öz bağlamalarında dini ayinlər, şəriət qaydaları, din tarixi, mistik anlayışlarla bağlı rəqəm simvolikasından məharətlə istifadə etmişdir. Növrəs İman elə dərin dini bilik sahibi olmuşdur ki, onun şeirlərindəki hərf simvolikası günü bu gün də əksər aşıqlar və tədqiqatçılar tərəfindən izah edilə bilmir. Bu tip bağlamalarda hərf simvolikasının yaratdığı mürəkkəblik mətni sirr və sehrə qərq edir. Bu mürəkkəblik haqqında təsəvvür yaransın deyə aşığın aşağıdakı bağlama nümunəsinə diqqət edək:

Altı, səkkiz, doqquznan bir
Yetər on dörd yerinə;
Yeddi, səkkiz on ikiynən
On dolanar sərinə;
Beş dolanır yeddi ilən,
On gəlir üç yerinə;
Altı dördün müttəsili,
Gah salır çox dərinə;
On nəfərdə on iki dil,
On gəlir asan mənim.

Altı beşlə doqquz üçün
Bir nəfər rəhbər gəlir;
Beş mükəddər, bir mütəhhər
Zikrimə əzbər gəlir;
Üç beşilən dörd məqama
Min səkkiz yüz ər gəlir;
Bu işlərdən, Növrəs İman,
Ağlına sərsər gəlir;
Yeddi sərvər, beş qulamı,
Yeddi dəftərxan mənim[39]

Növrəs İman poeziyasındakı *bədii ifadə vasitələrindən* təzad, mübaliğə, anafora, təkrir və bədii sual da disssertasiyada konkret misallar əsasında təhlil edilmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmişdir. Tədqiqat nəticəsində bir daha sübut olundu ki, Azərbaycan aşıq sənətinin bütün ideya zənginliyini və sənət meyarlarını özündə dolğun şəkildə əks etdirən Növrəs İmanın həyat və sənət bioqrafiyasının monoqrafik planda öyrənilməsi Azərbaycan folklorşünaslığı üçün aşağıdakı amillər baxımından xüsusi aktuallıq kəsb edir:

1. Növrəs İmanın əsərlərinin nəşr təcrübəsinin öyrənilməsi kontekstində ümumən ötən əsrin əvvəllərində aşıq sənətinin poetik

---

[38] Yenə orada, s.142
[39] Növrəs İman. Seçilmiş əsərləri. Bakı: Səda, 2004, s.171

irsinin şifahi və yazılı yollarla yayılma, nəsildən-nəsilə ötürülmə, qorunub saxlanılma mexanizmləri, həmçinin sovetləşmənin ilkin illərində bu prosesin bir tərəfdən sosial-ictimai, digər tərəfdən kulturoloji aspektləri ilə tanış oluruq.

2. Növrəs İmanın həyat və sənət bioqrafiyasının tədqiq təcrübəsinin öyrənilməsi belə bir həqiqəti bir daha sübut etdi ki, ideoloji yasaqların güclü olmasına baxmayaraq Növrəs İmanın şəxsiyyətinə və poetik irsinə folklorşünaslıq fikrimizdə daim xüsusi bir maraq olmuşdur. Onun poetik irsi daim diqqət mərkəzində olmuş, xalq bu şeirləri sevə-sevə oxumuş və nəsildən-nəslə ötürmüşdür.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Növrəs İmanın məhəbbət lirikası // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXVII kitab, 2008, s. 166-172
2. Növrəs İman yaradıcılığının nəşr məsələləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXXIII kitab, 2010, s. 77-84
3. Növrəs İmanın təcnis sənətkarlığı // Filologiya məsələləri, № 9, 2011, s. 353-362
4. Həm aşığam, həm dərvişəm, həm dəli // Dədə Qorqud, № 1, 2011, s. 86-95
5. Azərbaycan aşığı Növrəs İmanın poeziyasında ictimai lirika // Motif Akademi. Halkbilimi dergisi, № 2, 2011, s. 172-180
6. Тематические направления поэтического наследия Новрес Имана // Материалы II Международной научной конференции «Евразийская лингвокультурная парадигма и процессы глобализации» 10-12 ноября 2011 г. Пятигорск, с. 44-46
7. Лирика Новрес Имана // Вестник Казахского Национального Университета им.Аль-Фараби, № 3 (137), 2012, с.

*Севиндж Байрам кызы Аллазова*

## Жизнь и творчество Новрас Имана


### Резюме

Работа состоит из введения, трех глав, заключения и списка использланной литературы.

Во **вводной** части обосновывается актуальность темы, определяются цель, задачи и методологические принципы исследования.

Первая глава диссертации – **«Новрас Иман: литературная личность и мастерство»** состоит из трёх подглав. В этой главе исследуются вопросы издания творчества Новрас Имана, история изучения наследия народного поэта, раскрываются некоторые спорные вопросы, касающиеся жизни Новрес Имана.

Вторая глава диссертации называется «**Лирика Новрас Имана**» и состоит из трёх подглав и четырёх параграфов. Любовная лирика, социально-философская лирика, религиозно-мистическая лирика народного поэта исследуются в этой главе.

Третья глава под названием **«Вопросы мастерства и поэтического языка в поэзии ашуга»** состоит из четырех подглав и двух параграфов. В третьей главе изучаются такие жанры ашугского творчества, как устаднаме, дейишме, теджнис в творчестве Новрас Имана. Также исследуются особенности художественного языка произведений народного поэта.

В **заключении** обобщены выводы и основные положения исследования и определены направления дальнейшего изучения темы.

*Sevinj Bayram gizi Allazova*

**Novras Iman's life and activity**
**Summary**

The dissertation work consists of introduction, three parts, conclusion and the list of used literature.

In the **introduction** the actuality of the subject, the aim, duties and methodological principles are determined.

The first part of the dissertation work called **"Novras Iman: the literary personality and mastery"** consists of three chapters. In this part the problems such as Novras Iman's publication in the activity and the history of studying are investigated, some disputed matters about his life are cleared up

The second part of the dissertation work is called "**Novras Iman's lyric**" and consists of three chapters and four paragraphs. The love lyricism, social- philosophical lyricism, religious-mystical lyric poetry of the folk poet is investigated in this part.

The third part called "**Mastery and poetic language problem in ashug's poetry**" consists of four parts and two paragraphs. In this part the genres of ashug activity such as ustadname, deyishme, tejnis (quatrains - kinds of poem, composed by ashugs) are investigated in Novras Iman's activity. In the activity of the folk poet the peculiarities of the literary language are also investigated.

In the **conclusion** the main theses are generalized and the further directions of the studying subject are determined.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

*На правах рукописи*

**СЕВИНДЖ БАЙРАМ кызы АЛЛАЗОВА**

# ЖИЗНЬ И ТВОРЧЕСТВО НОВРАС ИМАНА

**5719.01 - Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Б А К У – 2013**